# Məğribdən Məşriqə yayılan Nəsimi ziyası

## *Dünyanın bir sıra elm və mədəniyyət ocaqlarında 650 yaşlı şairin adı anılıb*

Prezident İlham Əliyevin 2019-cu ilin ölkəmizdə "Nəsimi İli" elan olunması ilə bağlı Sərəncamına əsasən, dahi Azərbaycan şairinin 650 illik yubileyi bütün dünyada geniş qeyd olunur. Bununla əlaqədar Şotlandiyanın St.Andrews Universitetində yaradılan Azərbaycan Cəmiyyətinin təşkilatçılığı, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığındakı səfirliyinin birgə dəstəyi ilə böyük şair və mütəfəkkirin doğum gününə həsr olunmuş poeziya gecəsi keçirilib.




*St.Andrews Universitetində Nəsiminin 650 illiyi ilə əlaqədar keçirilmiş poeziya gecəsi*

Tədbiri St.Andrews Universitetindəki Azərbaycan Cəmiyyətinin rəhbəri Aslan Şıxəliyev açaraq Nəsiminin həyat və yaradıcılığı haqqında məlumat verib, onun zəngin bədii irsindən danışıb. Aslan Şıxəliyev Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya göstərdiyi diqqətə və Nəsiminin seçilmiş qəzəllərindən ibarət kitabların St.Andrews Universitetinin kitabxanasına hədiyyə olunmasında dəstəyə görə xüsusi minnətdarlığını bildirib.

Daha sonra Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevanın tədbir iştirakçılarına ünvanlanmış müraciəti oxunub. Məktubda Nəsiminin yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının dahi şairi olduğu qeyd olunur.

Gecədə Azərbaycan milli musiqisi sədaları altında müxtəlif ölkələrdən gələn tələbələrin ifasında Nəsiminin qəzəlləri səsləndirilib və şair haqqında filmdən fraqmentlər nümayiş etdirilib. Tədbir iştirakçıları Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən sertifikatlarla mükafatlandırılıb. Sonda St.Andrews və Oksford universitetlərindən olan qonaqlara Azərbaycan milli şirniyyatları təqdim olunub.

* * *

Marneulidə dahi Azərbaycan şairi İmadəddin Nəsimiyə həsr olunmuş Poeziya Günü keçirilib. Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) təşkil etdiyi tədbirdə ziyalılar, məktəblilər iştirak edib. GAİM-in icraçı direktoru Aygül İsayeva Nəsiminin yaradıcılığı barədə ətraflı məlumat verib, dahi şairin ibrətamiz şeirlərinin bu gün dillər əzbəri olduğunu bildirib.

GAİM-in idarə heyətinin üzvü, Faxralı kəndindəki Arif Əliyev adına 1 nömrəli məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi Fatma Əliyeva Nəsimi poeziyasının fəlsəfəsindən, onun şeirlərinin əruz vəznində və eyni zamanda, aşıq şeiri üslubunda yazılmasından söhbət açıb.




*Marneulidə İmadəddin Nəsimiyə həsr olunmuş Poeziya Günü*

Tədbirdə həmçinin həmin məktəbin müəllimlərindən Səyyad Allahverdiyev və Səmayə Musayeva Nəsimi yaradıcılığı və "Hürufiliyin nəzəri əsasları" haqqında məruzə ilə çıxış ediblər. Çıxışlarda Azərbaycan Prezidenti İlham Əliyevin 11 yanvar 2019-cu il tarixli Sərəncamı ilə 2019-cu ilin Azərbaycan Respublikasında "Nəsimi İli" elan edilməsi barədə də məlumat verilib. Nəsiminin 650 illik yubileyinin Azərbaycanda, xarici ölkələrdə azərbaycanlıların kompakt yaşadığı bölgələrdə də layiqincə qeyd olunduğu vurğulanıb. Tədbirdə Nəsimi irsi haqqında söhbət açılıb. Bildirilib ki, Nəsimi ana dili ilə yanaşı, farsca və ərəbcə də yazıb. Onun şeirləri digər dillərə, o cümlədən gürcü dilinə də tərcümə edilib. Nəsiminin əsərləri istedadlı tərcüməçi Oqtay Kazımov və gürcü şairi Zezva Medulaşvili tərəfindən tərcümə edilərək gürcü oxucularına çatdırılıb. Tədbirdə mükəmməl tərcümə üçün hər iki tərcüməçiyə təşəkkür edilib.

Sonra məktəblilər Nəsiminin şeirlərini söyləyiblər.

Poeziya Günü tədbirində "Nəsimi" filmi nümayiş olunub.

* * *

Sentyabrın 11-də Almaniyanın paytaxtı Berlində Azərbaycan Bəstəkarlar İttifaqının təşkilatçılığı ilə bəstəkarlarımızın böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illiyinə həsr olunmuş əsərlərindən ibarət "In Memoriam Nasimi – 650 Jahre Imadeddin Nasimi" adlı konsert təşkil edilib.

Konsertdən əvvəl çıxış edən Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov iştirakçılara İmadəddin Nəsiminin ömür yolu və bənzərsiz yaradıcılığı haqqında məlumat verib. Səfir 1369-cu ildə Şamaxı şəhərində dünyaya göz açmış İmadəddin Nəsiminin gənc yaşlarından klassik Şərq və yunan fəlsəfəsini, ədəbiyyat, astronomiya, məntiq elmlərini dərindən mənimsədiyini qeyd edib. O, Azərbaycan şairləri ilə yanaşı ərəb və fars müəlliflərin də yaradıcılığına yaxından bələd olan Nəsiminin Yaxın Şərqin görkəmli mütəfəkkirləri, filosof və alimlərinin əsərlərini mütaliə etdiyini, dövrünün təriqətlərinə maraq göstərdiyini, Azərbaycan ədəbiyyatı tarixində bədii-fəlsəfi poeziyanın əsasını qoyduğunu, söz sənətimizi forma və məzmunca zənginləşdirdiyini, sonrakı nəsillər üçün böyük ədəbi irs qoyub getdiyini nəzərə çatdırıb.



*Berlində "In Memoriam Nasimi – 650 Jahre Imadeddin Nasimi" adlı konsert*

Azərbaycanın dünya musiqisinə böyük töhfə verdiyini qeyd edən səfir R.Həsənov müsəlman dünyasında ilk operanın, o cümlədən ilk balet musiqisinin Azərbaycanda ərsəyə gəldiyini nəzərə çatdırıb, özünün rəngarəngliyi ilə seçilən

Azərbaycan musiqi məktəbinin ənənəviliklə yanaşı, müasir formaları da özündə ehtiva etdiyini vurğulayıb. Azərbaycan muğamından söz açan diplomat ölkəmizdə muğamın klassik musiqi ilə sintez edildiyini nəzərə çatdırıb. Azərbaycanda klassik musiqinin əsasının qoyulmasında xidmətlərinə görə dahi bəstəkar Üzeyir Hacıbəylini xatırladan səfir Firəngiz Əlizadə və onun həmkarlarının dahi bəstəkarın layiqli davamçıları olduqlarını bildirib. Səfir Ramin Həsənov Azərbaycanın mədəni irsinin qorunub saxlanmasında Heydər Əliyev Fondu və onun prezidenti Mehriban Əliyevanın misilsiz xidmətlərinin olduğunu qeyd edib.

Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Xalq artisti Firəngiz Əlizadənin yaradıcılığından söz açan Ramin Həsənov onun 2008-ci ildə YUNESKO-nun "Sülh Artisti" adına layiq görüldüyünü, Azərbaycan mədəniyyətinin xaricdə təbliğinə, eləcə də dünya musiqisinə böyük töhfə verdiyini nəzərə çatdırıb. O, bəstəkarın Nəsiminin əsərləri əsasında ərsəyə gətirdiyi "Dərviş", "Zikr", "Nəsimi Passionu" kimi əsərlərinin olduğunu da bildirib.

Səfir konsertin təşkil olunması və ərsəyə gəlməsinə verdiyi töhfəyə görə Azərbaycan Bəstəkarlar İttifaqına, onun sədri Firəngiz Əlizadəyə təşəkkür edərək konserti açıq elan edib.

Konsertdə Firəngiz Əlizadə ilə yanaşı digər Azərbaycan bəstəkarlarının – Cəlal Abbasov, Aliyə Məmmədova, Səid Qəni, Tahir İbişov, Firudin Allahverdinin İmadəddin Nəsiminin şeirləri əsasında bəstələnmiş əsərləri ifa olunub. Xanəndələr – "Qədim Musiqi Alətləri" Dövlət Ansamblının solisti, Xalq artisti Teyyub Aslanov, eləcə də Opera və Balet Teatrının solisti Mütəllim Dəmirov və soprano Afaq Abbasova tərəfindən əsərlər ifa olunub. İmadəddin Nəsimi obrazını isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının balet truppasının aparıcı solisti Anar Mikayılov canlandırıb.

Konsertdə Almaniyadakı elmi və mədəni ictimaiyyətin, bu ölkədəki səfirliyimizin və diasporumuzun nümayəndələri iştirak edib.